# 10. SİYASİ PARTİYALAR

## Xülasə

Əsas müxalifət partiyaları arasında siyasi ideologiya və yanaşma ilə bağlı fərqlilik yoxdur. Əksəriyyəti, partiya proqramlarında aydın ideoloji yanaşma ortaya qoymayıblar. Bu partiyalar siyasi fəaliyyətilərinin seçki proqramları və ideoloji yanaşmadan daha çox partiya liderinin fərdi keyfiyyətləri əsasında qururlar. Buna əsas səbəb kimi onu göstərmək olar ki, bu partiyaların əsası Sovetlər birliyi dövründə 1980-ci illərin sonlarında əsas aparıcı müxalif qüvvə olan və müstəqil Azərbaycan dövlətinin ilk illərində hakim partiya olan Xalq Cəhbəsi əsasında qurulub. Azərbaycanın siyasi mənzərəsində üstünlük təşkil edən partiyalar əsasən mərkəz sağ və milliyətçi ideologiyalara sahib olan partiyalardır. Qeydiyyata alınmış partiyaların sayının çoxluğu ümumilikdə bu sahədə müxtəlifliklikliyin olduğu kimi görünsə də, siyasi səhnədə əsas üstünlük hakim partiyaya məxsusdur.

**SİYASİ PARTİYALAR**
**Ümumi qiymət 46/100**

| MEYAR | İNDİKATOR | QANUN | TƏCRÜBƏ |
|---|---|---|---|
| Fəaliyyət qabiliyyəti 50/100 | Resurslar | 75 | 25 |
| | Müstəqillik | 75 | 25 |
| İdarəçilik 50/100 | Şəffaflıq | 75 | 25 |
| | Hesabatlılıq | 75 | 25 |
| | Dürüstlük | 75 | 25 |
| Şəffalıq sistemində rol 38/100 | Təmsilçilik | 50 | |
| | Antikorrupsiya öhdəçiliyi | 25 | |

## Struktur və təşkilatlanma

Azərbaycanda 50-dən çox partiya qeydiyyata alınıb. Amma onlardan çox azı siyasi səhnədə fəaldırlar. Ən böyük partiya ölkə prezidenti İlham Əliyevin sədrlik etdiyi hakim Yeni Azərbaycan Partiyasıdır. Müxalifət partiyaların əksəriyyəti prezident seçkiləri ilə əlaqədar 2013-cü ilin iyun ayında təsis edilən Demokratik Qüvvələrin Milli Şurası adlandırılan blokda cəmləşmişdilər. Bu partiyaların əksəriyyətinin kökü müstəqilliyin ilk illərində mövcud olan Xalq Cəhbəsi Hərəkatına bağlıdır. Amma bu partiyalardan çox azı tanınmış partiyalardır və azsaylı vətəndaşlar tərəfindən dəstəklənirlər. Ölkədə Yeni Azərbaycan Partiyasından başqa ən çox tanından partiyalar Müsavat[1], Xalq Cəbhəsi, Liberal Partiyası və Demokrat partiyasıdır. Bunlardan başqa Ana Vətən və Sosial Rifah Partiyası kimi hökumət yönümlü bir sıra kiçik

[1] Musavat (Bərarəblik) 1911-ci ildəə təsis edilmiş tarixi partiyadır. 1992-ci ildə yenidən təsis edilib.

partiyalar fəaliyyət göstərir. Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Demokratik İslahatlar Partiyası, Ədalət, Vətəndaş Həmrəyliyi və Ümid Partiyası da Milli Məclisdə təmsil olunan partiyalar sırasındadır. Müxalif partiyalar arasında ən böyük dəstəyə malik partiyalar Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyalarıdır.

## Qiymətləndirmə

## Resurslar (qanunda): 75

*Qanunvericilikdə siyasi pariyaların təsisi və fəaliyyəti üçün nə kimi imkanlar nəzərdə tutulub?*

Siyasi partiyaların təsisi və idarə olunması ilə bağlı qanunveciliyi kifayət qədər güclü hesab etmək olar. Siyasi partiyaların fəaliyyəti Azərbaycan Respublikasının Konstitutsiyası, Siyasi Partiyalar Haqqında qanun[2] və Seçki Məcəlləsi[3] ilə tənzimlənir. Bununla yanaşı, siyasi partiyaların təsisi və fəaliyyətlərinin əsasını azad toplaşmaq, üzvlərinin bərabər hüquqluluğu, özünü idarəetmə, qanunilik və açıqlılıq kimi prinsiplər təşkil edir. Azərbaycanda siyasi partiyalar təsis qurultayları yolu ilə formalaşırlar. Qanuna görə, siyasi partiyanın nizamnaməsi və proqramının qəbul olunması, rəhbər və nəzarət-təftiş orqanlarının formalaşdırılması təsis qurultayı tərəfindən aparılmalıdır.[4] Bunun üçün, siyasi partiyanın yaradılması təşəbbüsü ilə çıxış edən şəxslər tərəfindən təşkilat komitəsi yaradılmalıdır. Təşkilat komitəsi siyasi partiyanın qurulması üçün tələb olunan işləri həyata keçirməli, partiyanın orqanları, nizamnaməsi və proqramı partiyanın ali rəhbər orqanı-Qurultayı tərəfindən təsdiq edilməlidir. Qurultay ən azı beş ildə bir dəfə keçirilməlidir.[5]

Siyasi partiyaların qeydiyyatı, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunla[6] aparılır. Siyasi partiyanın təsis olunduğu gündən bir ay müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna uyğun olaraq, partiya üzvlərinin sayını təsdiqləyən sənəd əlavə edilməklə, siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün müraciət olunur. Qeydiyyat üçün minimal üzv sayı 1000 nəfərdir. Siyasi partiyanın nizamnaməsini və proqramını qəbul etmiş, yetkinlik yaşına çatmış tam fəaliyyət qabiliyyətli Azərbaycan Respublikasının vətəndaşları siyasi partiyaya üzv ola bilərlər. Siyasi partiyalar tərəfindən üzvlərinin qeydiyyatı aparılır. [7]

Qanunda partiyaların regional və yerli əsasda formalaşdırılmasına heç bir məhdudiyyət yoxdur, lakin partiyalar öz fəaliyyətini ümumölkə səviyyəsində qurmalıdırlar. Regionlarda fəaliyyət yalnız quruma məxsus rayon təşkilatları vasitəsilə həyata keçirilməlidir. Hətta öz konstitutsiyası, parlamenti, məhkəmə və icra orqanları olan Naxçıvan Muxtar respublikasında da regional partiyaların yaradılmasına icazə verilmir. Başqa bir nümunə kimi göstəriləcək fakt, xarici ölkə vətəndaşları və ya vətəndaşlığı olmayan şəxslər siyasi partiyanın üzvü ola bilməzlər. Amma QHT-lər də belə bir məhdudiyyət yoxdur. Yalnız 18 yaşına çatmış Azərbaycan vətəndaşları siyasi partiya üzvü ola bilərlər. QHT-lər də isə yaş məhdudiyyəti nəzərdə tutulmayıb. (yalnız QHT-nin təsisçiləri 18 yaşında olmalı, gənclər təşkilatının təsisçiləri isə 16 yaşında ola bilərlər) [8], [9].

---

[2] "Siyasi Partiyalar Haqqında" qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az
[3] Azərbaycan Seçki Məcəlləsi, 27 May 2003-cü il, 2010-cu il iyulun 17-də əlavə və dəyişikliklər edilib, www.msk.gov.az
[4] "Siyasi Partiyalar Haqqında "qanun, Maddə 4, www.e-qanun.az
[5] "Siyasi Partiyalar Haqqında" qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az
[6] "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanun, 12 Dekabr, 2003-cü il www.justice.gov.az
[7] "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanun, 12 Dekabr, 2003-cü il www.justice.gov.az
[8] "QHT-lər haqqında qanun (İctimai Birliklər və Fondlar haqqında) "13 İyun 2000, www.e-qanun.az

Əgər qanunun ilkin variantı qeydə alınmayan partiyaların fəaliyyətini açıq şəkildə qadağan etmirdisə, yeni dəyişiklərdə (adıçəkilən  qanunun 14-cü maddəsi) bunu aydın şəkildə bəyan edən müddəalar mövcuddur. [10]

Siyasi partiyaların mülkiyyətində binalar, avadanlıq, nəşriyyatlar, mətbəələr, nəqliyyat vasitələri, habelə nizamnamə vəzifələrini yerinə yetirmək üçün lazım olan digər əmlak ola bilər. Siyasi partiyalar borc və ya icarə barəsində başqa şəxslərlə bağladıqları müqavilələrə uyğun olaraq binalardan və başqa əmlakdan istifadə edə bilərlər. Bununla belə, siyasi partiyaların mülkiyyətində torpaq, sənaye müəssisələri, istehsal birlikləri və kooperativlər ola bilməz, siyasi partiyalar təsərrüfat və ya kommersiya fəaliyyəti ilə məşğul ola bilməzlər.

Siyasi partiyalar haqqında Qanuna edilmiş əlavə və dəyişikliklərdən[11] sonra partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi həyata keçirilir. Bu zaman əsas meyar partiyanın qeydiyyat keçməsi deyil. Burada nəzərə alınan əsas məqam partiyanın Milli Məclisə keçirilən seçkilərdə göstərdiyi nəticələrdir.  Dövlət büdcəsindən ayrılmış vəsaitin 10 faizi irəli sürdüyü namizədlər Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş son seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunmayan siyasi partiyalar arasında qazanılmış səslərin sayına proporsional olaraq bölünür. Vəsaitin 40 faizi Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar arasında bərabər, 50 faizi isə seçilmiş deputatlarının sayına proporsional olaraq bölünür. Siyasi partiyalar Milli Məclisə keçirilmiş son seçkilərdə siyasi partiyalar bloku tərkibində iştirak etdikdə, dövlət büdcəsindən ayrılan vəsait partiyalar arasında ayrıca olaraq bölünür. [12]

Qanuna edilən son dəyişikliklər, siyasi partiyaların maliyyələşməsi ilə bağlı mühiti bir qədər şəffaflaşdırsa da, ümumilikdə məhdudlaşdırıcı xarakter daşıyır.[13] Qanuna görə, siyasi partiyaların bələdiyyə orqanları və onların tabeliyində olan qurumlardan, xarici dövlətlər və xarici hüquqi şəxslərdən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, yetkinlik yaşına çatmamış şəxslər, soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədinin seriyasını və nömrəsini göstərməyən fiziki şəxslər, hərbi hissələr, ictimai birliklər və fondlar, dini qurumlar və hüquqi şəxslərdən tərəfindən maliyyələşməni qadağan edir.

## Resurslar (təcrübədə):  25

*Siyasi mübarizədə partiyaların effektiv fəaliyyətinin qurulması üçün maliyyə imkanları nə dərəcədədir?*

Partiyalar arasında rəqabət bərabər əsaslarda deyil. Bunun əsas səbəblərindən biri partiyaların maliyyə qaynaqlarıdır. Partiyaların əksəriyyəti nə dövlət, nə də hər hansı bir biznes subyektindən kifayət qədər maliyyə vəsaiti almır. Buna əlavə olaraq, ölkədə siyasi təzyiqlərdən ehtiyatlanan şəxslər üzvlüyə yazılmır və bu səbəbdən toplanan üzvlük haqqları tam açıq olmur, bir çox vaxtlarda bu vəsait ümumilikdə partiyanın maliyyələşməsi üçün kifayət etmir. Son illər bir neçə kiçik partiyalar yaradılsa da, onların çox

---

9 “Siyasi Partiyalar Haqqında” qanun,  3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib,  www.e-qanun.az
10 “Siyasi Partiyalar Haqqında” qanun , 14-cü maddə,  3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib,  www.e-qanun.az
11 “Siyasi Partiyalar Haqqında” qanun,  3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib,  www.e-qanun.az
12 “Siyasi Partiyalar Haqqında” qanun,  3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib,  www.e-qanun.az
13 Siyasi partiyalar yoxsa YAP haqqında qanun? Azadliq radiosu, 21 Aprel 2012-ci il   http://www.azadliq.info/syast/327-siyaset2/15918-siyasi-partiyalar-haqqnda-yoxsa-yap-haqqnda-qanun.html

azının ölkənin siyasətinə real təsir imkanları mövcuddur. Bu partiyaların bir çoxu çox kiçikdir, maliyyələşmələri məhduddur və ictimaiyyət tərəfindən dəstəkləri olduqca aşağıdır. [14]

Fərdi biznesmenlər müxalifət partiyalarını maliyyələşdirməkdən çəkinirlər.[15] Ölkədə ümumi ölkə üzrə və regional şəkildə yayımlanan televiziya kanalları olsa da, əsas müxalifət partiyalarının bu kanallara çıxıb, öz siyasi fikirlərini səsləndirmək imkanları məhduddur. Müxalifət partiyaları daha çox onlayn resurslardan və internet mediadan istifadə edirlər. Lakin ölkədə əhali informasiyanı əsasən televiziya kanallarından əldə edir. Bu səbəbdən, vətəndaşlar hakim partiyanın fəaliyyətindən kənar siyasi yanaşmalar barədə az məlumatlıdırlar. Bundan fərqli olaraq, hakim partiya televiziya kanalları tərəfindən heç bir məhdudiyyətlə qarşılaşmır. Son prezident və parlament seçkilərində qeydə alınmış namizədlərə öz təbliğatlarını aparmaq üçün, yalnız debatda iştirak edən şəxslərin sayına bərabər olaraq əvvəlcədən müəyyən edilmiş efir vaxtı ayrılıb. Siyasi partiyalar eyni zamanda mediada reklamın kifayət qədər baha olmasından və buna şirkətlərin həvəs göstərməməsindən şikayətlənirlər.[16]

Partiyaların ictimai-siyasi fəaliyyətinin həyata keçirilməsində ən vacib məqamlardan biri də onların qərargahlarının olmasıdır. Lakin Azərbaycanda bununla bağlı problemlər var. Yalnız hakim Yeni Azərbaycan Partiyasının qərargahı müasir standartlara cavab verən və fəaliyyətin normal idarə olunmasına imkan verən vəziyyətdədir. Bir çox partiyaların ya ümumiyyətlə qərargahları mövcud deyil ya da qərargahların şəraiti, maddi-texniki təminatı kifayət səviyyədə deyil. Bəzi partiyaların qərargahları sahibkarlardan və ya dövlətdən icarəyə götürülən binalarda yerləşir. Ancaq bir sıra partiyalar bu kimi ofisləri də çətinliklə əldə edə bilirlər[17].

## Müstəqillik (qanunda): 75

*Siyasi partiyaları fəaliyyətləri ilə əlaqədar kənar təsirlərdən qorumaq üçün qanunda nə kimi qabaqlayıcı müddəalar mövcuddur?*

Qanunla dövlət instutlarının siyasi partiyaların fəaliyyətinə müdaxilə etməsinə imkan verilmir. Belə ki, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanlarının və vəzifəli şəxslərin siyasi partiyaların fəaliyyətinə qarışması qadağandır. Lakin bu qadağanın pozulmasına, yəni siyasi partiyaların fəaliyyətinə qanunsuz qarışmağa görə hüquqi məsuliyyət müəyyən edilməmişdir.
Partiyanın fəaliyyətinə yalnız partiyanın qurultayının və məhkəmənin qərarı ilə son qoyula bilər. Siyasi partiyanın ləğvi barədə məhkəmə qərarı müvafiq icra hakimiyyəti orqanının ərizəsi əsasında Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq qəbul edilir. [18] Siyasi partiyaların təsisi və fəaliyyəti ilə bağlı aşağıdakı qadağalar mövcuddur.:

- Azərbaycan Respublikasının Konstitusiya quruluşunu və dünyəvi xarakterini zorakılıqla dəyişdirməyə, ərazi bütövlüyünü pozmağa cəhd göstərmək
- müharibəni, zorakılığı və qəddarlığı təbliğ etmək
- irqi, milli və dini ədavəti qızışdırmağa yönəlmiş fəaliyyətlə məşğul olmaq

[14] Qafqaz Analitik Xülasə, 24 Fevral 2011-ci il, 24-cü nömrə, Azərbaycanda formal siyasi sistem, Andreas Henrixin məqaləsi, http://www.css.ethz.ch/publications/pdfs/CAD-24-2-5.pdf
[15] Zəfər Quliyev-siyasi məsələlər üzrə ekspertinin hesabatın müəllifi ilə müsahibəsi, 6 Sentyabr, 2013-cü il
[16] ATƏT-in Demokratik Təsisatlat və İnsan Hüquqları Bürosunun (ODİHR) – Seçkiləri Müşahidə Missiyasının hesabatı 17-21 İyun, 2013-cü il http://www.osce.org/odihr/elections/103561
[17] Ofisi olmayan müxalifət: Səyyari gəzən siyasi partiyalar, Modern az, 12 mart 2013-cü il http://modern.az/articles/35765/1/
[18] "Siyasi Partiyalar Haqqında » qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az

Qanunda eyni zamanda partiyaların hansı fəaliyyət ilə məşğul ola bilməyəcəkləri də öz əksini tapır. Siyasi partiyalar haqqında qanun və dövlət qulluğu[19] haqqında qanunvericilikdə dövlət və yerli özünüidarəetmə orqanlarında siyasi partiyaların təşkilatlarının yerləşdirilməsinə yol verilmir.[20]

Bütün səlahiyyəti müddətində bütün məhkəmələrinin sədrləri, sədr müavinləri və hakimləri, İnsan hüquqları üzrə müvəkkili (ombudsman), hərbi qulluqçular, köməkçi-texniki heyət istisna olmaqla, prokurorluq, ədliyyə, daxili işlər, milli təhlükəsizlik, sərhəd xidməti, gömrük, maliyyə, vergi, feldyeger rabitəsi, fövqəladə hallar, miqrasiya orqanlarının, dövlət mətbuatı orqanlarının işçiləri, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım şurasının üzvləri, baş direktoru və onun müavinləri, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvləri, din xadimləri siyasi partiyaların üzvü ola bilməzlər.[21]

## Müstəqillik (təcrübədə): 25

*Siyasi partiyalar təcrübədə fəaliyyətləri ilə əlaqədar olaraq özlərini kənar təsirlərdən nə dərəcədə qoruya bilirlər?*

Ölkənin əsas müxalifət partiyaları olmasına baxmayaraq, Müsavat və Azərbaycan Xalq Cəbhəsi partiyaları 2010-cu ildən Parlamentdə təmsil olunmurlar. Müxalif partiyaları bəyan edirlər ki, azad toplaşmaq və ifadə azadlığı kimi ən təməl azadlıqları məhdudlaşdırılır. Eyni zamanda, maliyyələşləmələrinə və ictimai televiziyanın efir məkanından istifadə ilə bağlı da məhdudiyyətlərin olduğu qeyd olunur.

Bundan başqa Parlamentdə konstruktiv" müxalifət adlanan partiyalar var.[22] Siyasi partiyalar haqqında Qanuna zidd olaraq, ikinci növ partiyalara şamil edilən partiyalardan birinin – Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev ölkə üzrə yayımlanan kanallardan birinin - "Lider" televiziyasının efirində siyasi motivli verilişin aparıcılığını edir. Onun verilişində yalnız əsas müxalif partiyaların fəaliyyəti tənqid olunur[23].

Müxalifət partiyalarının üzvləri bəyan edirlər ki, onların seçki ilə əlaqədar ictimaiyyət arasında seçki təbliğatı aparmasına hökumət polis və siravi vətəndaşlardan istifadə etməklə süni manelər yaradır.[24]

Bundan başqa Musavat başqanının müavini Tofiq Yaqublu və REAL hərəkatının rəhbəri İlqar Məmmədovun 2013-cü il Fevral ayının 4-də həbs olunması da müxalifət partiyalarına təzyiq vasitəsi kimi qiymətləndirilir. Onlar həmin ilin yanvar ayında İsmayıllı şəhərində keçirilən etiraz aksiyalarının təşkilində günahlandırılırlar.[25]

## Şəffaflıq (qanunda): 75

*Qanunvericilikdə siyasi partiyaların öz maliyyə məlumatlarını ictimaiyyətə açıqlamaları ilə bağlı nə kimi öhdəliklər mövcuddur?*

[19] "Dövlət qulluğu haqqında" qanun, Maddə 4.2, 21 iyul 2000-ci il, www.e-qanun.az
[20] "Siyasi Partiyalar Haqqında" qanun, Maddə 4; Dövlət Qulluğu haqqında qanun, Maddə 4.2 www.e-qanun.az
[21] "Siyasi Partiyalar Haqqında" qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az
[22] The Foreign Policy Centre, Azərbaycan diqqət mərkəzində, May 2012-ci il http://fpc.org.uk/fsblob/1462.pdf
[23] "Lider TV hücuma hazırlaşır", 16 May 2013-cü il http://sun.az/index.php?sid=52204#aa
[24] The Foreign Policy Centre, Azərbaycan diqqət mərkəzində, May 2012-ci il http://fpc.org.uk/fsblob/1462.pdf
[25] Azərbaycan: Hökumət açıq tənqidlərə qarşı dözümsüzdür, Human Rights Watch, 6 Fevral 2013-cü il, http://www.hrw.org/news/2013/02/06/azerbaijan-government-detains-outspoken-critics

Qanunvericilikdə siyasi partiyaların öz fəaliyyətlərini müstəqil şəkildə qurmalarına heç bir məhdudiyyət qoyulmur. Partiyalar qanun çərçivəsində öz fəaliyyətlərini azad şəkildə qura bilərlər. Partiyalar müvafiq normativ aktlar[26] əsasında maliyyə mənbələri haqqında məlumatları vermәlidirlər.

Siyasi Partiyalar Haqqında qanuna 2012-ci ildə edilmiş dəyişikliklərə[27] görə, partiyalar öz proqramlarını Ədliyyə Nazirliyinə qeydiyyat üçün müraciət etdikləri zaman təqdim etməlidirlər. Proqrama sonradan ediləcək dəyişikliklər barədə müvafiq quruma məlumat verilməlidir. Eyni zamanda partiyalar illik maliyyə hesabatlarını hər il aprelin 1-dən gec olmayaraq təqdim etməlidirlər. Siyasi partiyalar mühasibat uçotunu və maliyyə hesabatlarını "Mühasibat uçotu haqqında" Qanununa[28] uyğun olaraq tərtib etməlidirlər. Siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə kütləvi informasiya vasitələrində dərc etməyə məsuliyyət daşıyırlar. Eyni zamanda qanuna görə, üzvlük haqqı ödəyən siyasi partiya üzvlərinin sayı maliyyə hesabatında qeyd edilməlidir. Yeni qanun dəyişikliklərinə görə ölkədən kənarda Azərbaycan vətəndaşları partiyanın maliyyələşdirilməsində iştirak edə bilməzlər. Partiyaya ianə vermək istəyən ölkə ərazində yaşayan vətəndaşlar isə öz şəxsiyyətlərini açıqlamalıdırlar. Yeni dəyişikliklər partiyaların maliyyə mənbələrini xeyli məhdudlaşdırır.

## Şəffaflıq (təcrübədə): 25

*İctimaiyyət partiyaların maliyyə məlumatları barədə nə dərəcədə informasiya almaq imkanına malikdir?*

Transparency International tərəfindən açıqlanan dünya üzrə vətəndaşlar arasında keçirilən sorğunun nəticələri əsasında korrupsiyanın səviyyəsini öyrənən 2013-cü il Qlobal Korrupsiya Barometrinin nəticələrinə görə Azərbaycanda rəyi soruşulan respondentlərin 28%-i siyasi partiyaların korrupsiyalaşdığını bildirir.[29] Müstəqil ekspert Zəfər Quliyev siyasi partiyaların öz maliyyələri barədə ictimaiyyətə ətraflı məlumat vermədiyini bildirir. O, eyni zamanda partiyaların əsasən üzvlük haqqları və ianələr hesabına maliyyələşməsini çətin hesab edir.[30] Bəzi vətəndaş cəmiyyəti təşkilatları partiyalara edilən yardımların heç də hər zaman müvafiq qaydada qeydiyyata alınmadığını və hesabatlara daxil edilmədiyini bildirirlər[31]. Partiyaların maliyyələşməsi ilə bağlı şəffaflıq adətən aşağı qiymətləndirilir.[32] Siyasi partiyaların maliyyə məsələlərini və edilən yardımların məbləğini izləmək çətinlik yaradır. Bu isə onunla bağlıdır ki, bu cür yardımlar adətən nağd formada həyata keçirilir. Heç bir partiya onlara edilən yardım və xərclər barədə ətraflı məlumatı veb səhifəsində və ya digər mənbələrdə yerləşdirmir. Bu səbəbdən, ictimaiyyətin bu kimi məlumatlara çıxış imkanları çox məhduddur.[33]. Bugünədək partiyaların maliyyələşmədə yol verdikləri nöqsanlara görə onlar haqqında hər hansı inzibati və ya cinayət xarakterli işə rast gəlinməyib[34].

## Hesabatlılıq (qanunda): 75

---

[26] "Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması qaydaları"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin qərarı. 30 Avqust 2013-cü il
[27] "Siyasi Partiyalar Haqqında" qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az
[28] "Mühasibat Uçotu Haqqında" Qanun, № 716 IIQ tarix 29 İyun, 2004-cü il, www.maliyye.gov.az
[29] Qlobal Korrupsiya Barometri 2013. Transparency International təşkilatının hesabatı, İyul 2013-cü il, www.transparency.org
[30] Zəfər Quliyev-siyasi məsələlər üzrə ekspertin hesabatın müəllifi ilə müsahibəsi, 6 Sentyabr, 2013-cü il
[31] Məşvərət Qrupunun görüşü, 19 iyul, 2013-cü il
[32] Məşvərət Qrupunun görüşü, 19 iyul, 2013-cü il
[33] Zəfər Quliyev-siyasi məsələlər üzrə ekspertin hesabatın müəllifi ilə müsahibəsi, 6 Sentyabr, 2013-cü il
[34] GRECO-nun 48-ci Plenar iclasında hazırlanmış Azərbaycanda partiyaların maliyyə şəffaflığının vəziyyəti barədə qiymətləndirmə hesabatı, 1 Oktyabr 2010. http://www.coe.int/t/dghl/monitoring/greco/evaluations/round3/GrecoEval3(2010)2_Azerbaijan_Two_EN.pdf

*Müvafiq dövlət qurumu tərəfindən siyasi partiyaların maliyyə idaretməsinə nəzarətin aparılması üçün qanunda nə kimi əsaslar mövcuddur?*

Qanuna görə siyasi partiyalar illik maliyyə hesabatlarını müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidirlər. Bundan başqa vergi qanunvericiliyinə əsasən vergi orqanları siyasi partiyaların gəlirlərinin mənbələrinə, əldə etidikləri qazancın mənbəyinə və vergilərin ödənişinə nəzarət etmək səlahiyyəti var.[35]

Seçki Məcəlləsinə görə, Mərkəzi Seçki Komissiyası[36] tərəfindən seçki kampaniyası dövründə şəffaflığın təmin edilməsi məqsədilə, Xüsusi seçki hesablarının açılmasının və aparılmasının uçotu, hesabatı qaydası, habelə namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının seçki fondlarına vəsaitlərin daxil olması və xərclənməsi qaydası Mərkəzi Bankla razılaşdırılmaqla, səsvermə gününə azı 55 gün qalmış müəyyənləşdirilir. Qanuna görə namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu öz seçki vəsaitlərinin daxil olmasının və xərclənməsinin uçotunu aparmağa borcludur.

Mövcud qanuna əsasən namizədlər ilkin maliyyə hesabatını Mərkəzi Seçki Komissiyasında seçki günündən 30-50 gün qabaq qeydiyyat üçün zəruri sənədlərlə birgə təqdim etməlidirlər. Bu hesabata hesabatda göstərilmiş tarixə 2 gün qalmışdan əvvəlki dövr üçün məlumatlar daxil edilir. İkinci ilkin maliyyə hesabatı səsvermə gününə ən tezi 20 gün qalmış və səsvermə gününə ən geci 10 gün qalmış təqdim edilir; bu hesabata orada göstərilmiş tarixə 7 gün qalmışdan əvvəlki dövr üçün məlumatlar daxil edilir. Yekun maliyyə hesabatı seçkilərin nəticələrinin rəsmi dərc edildiyi gündən ən geci 10 gün sonra təqdim edilir; yekun maliyyə hesabatına seçki fonduna vəsaitlərin daxil olmasını və xərclənməsini təsdiq edən ilkin maliyyə sənədləri qoşulur.[37]

Siyasi partiyaların maliyyə mənbələri tam olaraq təyin olunmayıb və onlar ətraflı qaydada tənzimlənmir. Hətta bəzən, qeyri müəyyən formada "digər gəlirlər" anlayışdan istifadə olunur. İanə termininin ətraflı izahı verilmir. Burada göstərilən öhdəliklər əsasında müəyyən olunmayan gəlir mənbələrinin növlərinin də aydınlaşdırılmasına da ehtiyac var. Qanunla xeyriyyə məqsədilə verilən ianələrin də kommersiya xarakteri daşıyıb, daşımadığını aydınlaşdırmaq çətindir. Üzvlük haqqları ilə bağlı yeganə öhdəlik isə ondan ibarətdir ki, partiyalar illik hesabatlarında üzvlük haqqı verən üzvlərinin sayını göstərməlidirlər[38].

Əgər partiyanın maliyyələməsi və şəffafflığın təminatı ilə bağlı pozuntular baş verərsə bununla bağlı Ədliyyə Nazirliyinin xəbardarlıq vermək səlahiyyəti var. Əgər bu pozuntu təkrarlanarsa, Nazirlik bununla bağlı məhkəmə qarşısında vəsadət qaldıra və məhkəmə partiyanın gələcək fəaliyyəti ilə bağlı qərar qəbul edə bilər. Azərbaycan qanunverciliyinə görə siyasi partiyalar yol verdikləri pozuntulara görə cinayət, inzibati, maliyyə və digər kodekslərə görə məsuliyyət daşıyırlar. Maliyyə hesabatını tərtib etməməyə görə, partiyalar qanun qarşısında məsuliyyət daşıyırlar.[39] Qüvvədə olan qanunvericiliyə görə[40] siyasi partiyalar qanunla qadağan olunmuş vəsaitin, o cümlədən ianələrin qəbul edilməsi, ianələr barədə məlumatın maliyyə hesabatına daxil edilməməsi və ianə edilən pul vəsaitlərinin nağd şəkildə qəbul edilməsi kimi maliyyə pozuntulara görə inzibati məsuliyyətə cəlb edilə bilərlər.

---

[35] "Siyasi Partiyalar Haqqında" qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az
[36] www.msk.gov.az
[37] Azərbaycan Respublikasının Seçki Məcəlləsi, 27 May 2003-cü il, 2010-cu il iyulun 17-də əlavə və dəyişikliklər edilib, www.msk.gov.az
[38] "Siyasi Partiyalar Haqqında" qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az
[39] "Siyasi Partiyalar Haqqında" qanun, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az
[40] İnzibati Xətalar Məcəlləsinin 49-4, 247-4 və 247-5-ci maddələri

## Hesabatlılıq (təcrübədə): 25

*Təcrübədə siyasi partiyalar üzərində maliyyə nəzarəti nə dərəcədə effektivdir?*

Qanunla, siyasi partiyalar maliyyə hesabatları təqdim etmək məcburiyyətində olsalar da, təcrübədə, partiyaların bu formal sənədləri təqdim etməsi halına rast gəlinmir. Bəyan edilməyən maliyyə- nağd ianə, hüquqi çərçivədən kənar edilən ödəniş və xeyriyyə məqsədilə edilən yardımlar ilə bağlı olaraq seçki kampaniyası dövründə bu maliyəyə effektiv nəzarət etmək mümkün deyil. Bu günə qədər partiyaların maliyyə hesabatlılığı sahəsində və ya seçki kampaniyalarının maliyyələşməsi zamanı şəffaflığın təminatı sahəsində yol verdikləri pozuntulara görə cinayət, inzibati vəya mülki sanksiyaya cəlb olunmaları ilə bağlı məlumata rast gəlinməyib[41]. Bu onunla izah oluna bilər ki, partiyaların üzərinə qoyulan bu öhdəliklərin ətraflı izahı Nazirlər Kabinetinin 30 Avqust 2013-cü il tarixli “Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması qaydaları”nın təsdiq edilməsi haqqında qərarında[42] göstərilib və yeni qaydalara görə maliyyə hesabatları 2014-cü il yazında təqdim olunmalıdır. Əgər sanksiyalar tətbiq olunacaqsa bu 2014-cü il Aprel ayından sonrakı tarixə təsadüf edəcək.

## Dürüstlük (qanunda): 75

*Əsas partiyaların daxili demokratik idarəetmə ilə bağlı qaydalarını tənzimləyən təşkilat daxili qaydalar nə səviyyədədir?*

Siyasi partiyalar daxili idarəetmələrini müvafiq nizamnamələri əsasında qururlar. Təcrübədə heç bir partiyanın nizamnamədən başqa Davranış Kodeksi vəya üzvlərinin hüquq və öhdəliklərini özündə əks etdirən başqa bir sənəd yoxdur. Nizamnamələr müxtəlif partiyalar üçün eyni model ( Siyasi partiyalar haqqında Qanun) əsasında hazırlanır və partiya daxili idarəetməni, seçki prosedurunu və partiya ideologiyasını tənzimləyir. Siyasi Partiyalar haqqında qanun partiya üzvlərinin hüquqlarını aşağıdakı formada təsbit edir.

- siyasi partiyanın üzvləri onun rəhbər orqanlarına seçilmək və seçmək;
- siyasi partiyanın və onun rəhbər orqanlarının fəaliyyəti haqqında məlumat almaq;
- partiyanın nizamnaməsində nəzərdə tutulmuş qaydada rəhbər orqanların qərarlarından şikayət etmək;
- siyasi partiyanın nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malikdirlər.

Siyasi partiyanın nizamnaməsini və proqramını qəbul etmiş, yetkinlik yaşına çatmış tam fəaliyyət qabiliyyətli Azərbaycan Respublikasının vətəndaşları siyasi partiyaya üzv ola bilərlər. Siyasi partiyalar tərəfindən üzvlərinin qeydiyyatını aparmalıdırlar. Qanuna görə heç kəs hər hansı siyasi partiyaya daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz[43]. Siyasi partiyaya daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur etmə cinayət məsuliyyətinə səbəb olur.[44]

## Dürüstlük (təcrübədə): 25

[41] GRECO-nun 48-ci Plenar iclasında hazərlanmış Azərbaycanda partiyaların maliyyə şəffaflığının vəziyyəti barədə qiymətləndirmə hesabatı, 1 Oktyabr 2010 http://www.coe.int/t/dghl/monitoring/greco/evaluations/round3/GrecoEval3(2010)2_Azerbaijan_Two_EN.pdf

[42] “Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması qaydaları”nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin qərarı. 30 Avqust 2013-cü il, www.president.az

[43] “Siyasi Partiyalar Haqqında qanun”, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az

[44] AR Cinayət Məcəlləsinin 169-1-ci maddəsi

*Təcrübədə təşkilatın daxili idarəetməsini tənzimləyən qaydalara nə dərəcədə effektivdir?*

Bu gündədək partiya liderlərinin seçilməsi ilə bağlı hər hansı bir şikayətə rast gəlinməyib. Amma partiya üzvlyünə cəlb edilmə və onun üzvlyündə qalmağa məcbur edilmə ilə bağlı hallar mövcuddur. Siyasi partiyalar öz fəaliyyətlərini nizamnamələri əsasında qururlar, lakin bununla belə partiyaların rəhbərliyində dayişiklik vəya qərarvermə prosesində üzvlərin fikirlərinin və təkliflərinin nəzərə alınması ilə bağlı aydın məlumatlar mövcud deyil. Belə ki, uzun illərdir ki, siyasi partiyaların rəhbərliyində təmsil olunan şəxslər eynidir və onların dəyişilməsi ilə bağlı faktlara çox nadir hallarda rast gəlinir. Bundan başqa siyasi partiyaların qərar qəbul etmə mexanizimləri ilə bağlı aydın yanaşmalar mövcud deyil. Siyasi partiyaların keçiridiyi iclaslar və verilən qərarlar bir çox hallarda ictimaiyyətin diqqətindən kənarda baş verir və bu hal daxili idarətemənin qiymələndirilməsini çətinləşdirir.

## Maraqların ifadəsi və təmsilçilik: 50

*Siyasi sahədə partiyalar ictimai maraqları bir araya gətirib təqdim etmək bacarıqlarına nə qədər malikdirlər?*

Partiyaya nəzarətdə aydın partiya proqramlarının olmaması, siyasi partiyalara sosial maraqları siyasi arenada ədalətli şəkildə təmsil etmələrinə və cəmləşdirməyə imkan verməyən əsas iki problemdir. Bu hal eyni zamanda vətəndaşlar arasında partiyaların mövqeyinin tam aydın anlaşılmasına maneə yaradır. Partiya rəsmiləri seçicilərindən daha çox partiya lideri qarşısında hesabatlııdırlar. Bu isə ölkədə siyasi laqeydliliyə səbəb olur.

Azərbaycanda siyasi cəhətdən üzdə olan şəxslərin zəif və parçalanmış olması, ölkə siyasətində partiyaların əsas rol oynamasına şərait yaradır. İnsanların partiyalarının platformalarından daha çox liderlərinin şəxsiyyəti barədə məlumatlıdırlar. Təsadüfi deyil ki, insanların partiyalara dəstəyi olduqca aşağıdır.

Siyasi partiyaların ölkədə dəyişikliklər üçün ictimai vəkillik funsiyasını həyata keçirməsi imkanları çox məhduddur və bunu əksər vaxtlar vətəndaş cəmiyyəti təşkilatları icra edilər[45]. Bir çox qanun layihələri siyasi partiyalardansa, vətəndaş cəmiyyəti ilə müzakirə olunur. Hazırkı Azərbaycan reallıqlarında QHT rəhbərlərinin əksəriyyəti bu sahəyə siyasətdən gəliblər[46] və bu işi yeni formada davam etdirirlər. Siyasi partiyalar ölkənin siyasi həyatında əsasən seçki qabağı dövrdə daxil olurlar.

Siyasi Partiyalar haqqında qanunun iki maddəsi ekspertlər tərəfindən ziddiyətli və bir-birinə tqarşı hesab olunur. Bir tərəfdən qanunun 5-ci maddəsində[47] partiyaların siyasətə təsir imkanları göstərilir. Belə ki, siyasi partiyalar

- ictimai məsələlər ilə bağlı rəylərini dövlət və yerli özünüidarəetmə orqanlarına çatdıra;
- nizamnamələrinə uyğun olaraq qanunvericilik və icra hakimiyyəti orqanlarının fəaliyyətinə təsir göstərə;
- siyasi və sosial proqramlar hazırlamaq yolu ilə daxili və xarici siyasətin formalaşmasına təsir göstərə bilərlər.

---

[45] Azərbaycan Şəffaflıq Tərəfdaşlığı Layihəsi QHT-ləri korrupsiyaya qarşı mübarizə işində birləşdirir. Vətəndaş cəmiyyətinin imkanlarının qiymmətləndirilməsi hesabatı, Şəffaflıq Azərbaycan təşkilatının nəşri, İyul 2013-cü il, www.transparency.az

[46] Məşvərət qrupunun görüşü, 19 July, 2013-cü il

[47] "Siyasi Partiyalar Haqqında qanun" , 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az

Amma digər tərəfdən, başqa bir maddə partiyaların dövlət orqanlarına və rəsmilərinə müdaxiləni qadağan edir. Siyasi partiya tərəfindən dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətinə müdaxilə edilməsinə görə inzibati məsuliyyət nəzərdə tutulur.

## Korrupsiyaya qarşı mübarizə üzrə öhdəliklər: 25

*Siyasi partiyalar ictimai hesabatlılığa və korrupsiyaya qarşı mübarizəyə nə qədər diqqət ayırırlar?*

"Siyasi partiyalar haqqında" Qanunda partiyaların əsas fəaliyyət formalarından birinin ölkənin əhəmiyyətli problemləri barədə vətəndaşların maarifləndirilməsi göstərilsə də[48], siyasi partiyalarda ictimai hesabatlılıq və korrupsiyaya qarşı mübarizə aktual mövzulardan hesab olunmur. Təcrübədə siyasi partiyalar öz bəyənatlarında vəya çıxışlarında bu sahələrlə bağlı çox məhdud məlumat verir və zəif diqqət göstərirlər.

Şəffaflıq və hesabatlılıq həm hakim, həm də müxalifət partiyalarının öz proqramlarında toxunmalı olduğu məsələlərdir.[49] Amma yuxarıda da qeyd olunduğu kimi partiyalar öz fəaliyyətini proqram hazırlayaraq ona uyğunlaşdırmaqdansa, əsasən nizamnamələri əsasında qururlar. Aydın olduğu kimi, nizamnamələr siyasi partiyaların korrupsiyaya qarşı mübarizə siyasətini tam aydın əsk etdirə bilməz. Nəticədə heç bir siyasi partiyanın korrupsiyaya qarşı mübarizə üçün aydın proqramı və yanaşması mövcud deyil. Müxalifət partiyaları öz araşdırmalarını aparmaqdansa, daha çox media və vətəndaş cəmiyyəti tərəfindən qaldırılan korrupsiya iddialarına münasibət bildirirməyə üstünlük verirlər.

Hakim partiya hökumətin korrupsiyaya qarşı mübarizəsini uğurlu və vətəndaşlar arasında populyar hesab etsə də, müxalifət partiyaları bunu kəskin tənqid edirlər. Hakim Yeni Azərbaycan Partiyası korrupsiyaya qarşı mübarizə ilə bağlı hökumətin həyata keçirdiyi siyasətə dəstək verməklə kifayətlənir, lakin partiyanın ayrıca bununla bağlı aydın yanaşması vəya proqramı mövcud deyil. Bu mənada hökumətin korrupsiyaya qarşı mübarizə siyasətini hakim partiyanın siyasi platforması kimi qəbul etməklə bağlı tərəddüdlər mövcuddur.

Təcrübədə siyasi partiyalar öz çıxışlarında və sənədlərində korrupsiyaya qarşı mübarizə ilə bağlı məsələlərə çox az vəya heç yer ayırmırlar. Yalnız seçki dövründə korrupsiyaya qarşı şüarlardan istifadə olunur ki, bu da bəzən populist səbəblərdən baş verir[50].

### Tövsiyyələr

- Siyasi partiyaların fəaliyyətinə qanunsuz qarışmağa görə hüquqi məsuliyyət müəyyən edilməsi;
- Siyasi partiyalar proqramlarını hazırlamalı və bu proqramlar geniş ictimaiyyətə təqdim edilməsi;
- Siyasi partiyaların korrupsiyaya qarşı mübarizə ilə bağlı siyasi proqramlarının hazırlanmasına ehtiyac var və hər bir partiyanın bununla bağlı aydın yanaşmasını özündə əsk etdirən sənədi hazırlaması məqsədəuyğun olardı;
- Siyasi partiyaların fəaliyyəti, onların həyata keçirdiyi tədbirlər, proqramları və siyasi xətti ilə yaxından tanış ola bilmək üçün partiyaların veb səhifələri yaradılmalı və inkişaf etdirilməlidir. Partiya barədə məlumatlar onların rəsmi veb səhifəsi tərəfindən yayılmalıdır;

---

[48] “ Siyasi Partiyalar Haqqında qanun”, 5-ci maddə, 3 İyun 1992-ci il, 20 Aprel 2012-ci ildə əlavə və dəyişikliklər edilib, www.e-qanun.az

[49] Fuad Süleymanov- müstəqil ekspertin hesabatın müəllifi ilə müsahibəsi, 7 Aprel 2014-cü il

[50] Fuad Süleymanov- müstəqil ekspertin hesabat müəllifi ilə müsahibəsi, 7 Aprel 2014-cü il

- Bir çox siyasi partiyaların daxili idarəetmə ilə bağlı sənədləri (məs. davranış kodeksi) mövcud deyil. Partiya daxili və kənar proseslərə effektiv və çevik reaksiya verə bilmək üçün bu kimi sənədlərin tərtibinə və fəaliyyətlərində bu sənədlərə istinad etmək məqsədə uyğun olardı;
- Partiyalar maliyyə hesabatlarını ictimaiyyət üçün açıq etməli və bununla bağlı qanunun öhdəliklərinə əməl etməlidirlər;
- Siyasi Partiyalar ölkənin ictimai-siyasi həyatında əhəmiyyət kəsb edən daxili, xarici siyasət, hüquqi, iqtisadi və sosial məsələlərə çevik reaksiya verməli və bu məsələrlə bağlı hüquqi və siyasi təhlillərini ictimaiyyətə təqdim etməlidirlər;
- Siyasi Partiyalar yalnız seçki dövründə deyil mütəmadi olaraq cəmiyyətdə aktivlik nümayiş etdirməlidirlər.